**Ölkəmizə idxal olunan baytarlıq preparatlarında aşkarlanan uyğunsuzluğa dair məlumat**

**(6 may 2024)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən "Atlas Kimya" MMC-nin Türkiyə Respublikasından ölkəmizə idxal etdiyi ümumi çəkisi 800 kq "Povidek Plus" əmtəə nişanlı baytarlıq preparatlarından nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunub. Aparılan sınaq nəticəsinə əsasən, nümunələrdə baytarlıq preparatlarının normativ texniki sənədlərin tələblərinə cavab vermədiyi aşkarlanıb.

Agentlik tərəfindən uyğunsuzluq aşkarlanan baytarlıq preparatlarının məhv edilməsi barədə müvafiq qərar qəbul olunub.